**Maliyyə hesabatlarına şərhlər və qeydlər.**

## 1. Giriş

Hazırkı maliyyə hesabatları 31 dekabr 2020-cu il tarixdə başa çatmış il üzrə yerli icra hakimiyyəti orqanının tələblərinə uyğun olaraq "PAŞA Həyat Sığorta" ASC üçün tərtib edilmişdir. Cəmiyyət Azərbaycan Respublikasında təsis edilmişdir və bu ölkədə fəaliyyət göstərir. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış açıq səhmdar cəmiyyətdir.

### 1.1. Şirkət haqqında ümumi məlumat

Şirkət 24 noyabr 2010-cu il tarixdə Azərbaycan Respublikası Vergilər Nazirliyi Bakı şəhər Vergilər Departamentinin Kommersiya Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsində 1001020031750200 saylı şəhadətnamə ilə "PAŞA Həyat Sığorta" Açıq Səhmdar Cəmiyyəti kimi dövlət qeydiyyatına götürülmüşdür. Qeydiyyat N-si: 1401876531.
Şirkət Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 14 fevral 2011-ci ildə verdiyi sığorta lisenziyası əsasında fəaliyyət göstərir və 11 dekabr 2015-ci il tarixində Şirkət müddətsiz lisenziya almışdır.

19 may 2014-cü il tarixində Şirkət Azərbaycan Respublikasının 29 oktyabr 2013-cü il tarixli "Sığorta fəaliyyəti haqqında Qanun"una edilmiş dəyişikliklərə uyğun olaraq qeyri-müəyyən müddətə təkrarsığorta fəaliyyəti ilə məşğul olmaq üçün ayrıca lisenziya almışdır. Dəyişikliklər 1 mart 2014-cü il tarixindən qüvvəyə minir.

19 fevral 2014-cü ildən etibarən Şirkət İcbari Sığorta Bürosunun ("Büro") üzvləri reyestrinə daxildir.

2017-ci ilin oktyabrında Şirkət Direktorlar Şurasının 1 avqust 2017-ci il tarixli qərarına əsasən təkrarsığorta lisenziyasını ləğv etmişdir.
Şirkətin əsas fəaliyyəti həyat sığortası xidmətlərinin göstərilməsidir. Şirkətin sığorta xidmətlərinə müəssisələrin və fiziki şəxslərin könüllü və icbari sığorta polislərinin verilməsi, məsələn həyatın müddətli sığortası, həyatın yaşam sığortası, sağalmaz xəstəliklərdən sığorta, eləcə də peşə xəstəlikləri və istehsalatda bədbəxt hadisələr nəticəsində sığortalıların həyatına və sağlamlığına dəyən zərər nəticəsində onların peşə əmək qabiliyyətinin itirilməsi ilə bağlı sığorta daxildir.
31 dekabr 2020-ci tarixinə Şirkət PAŞA Holdinq MMC-nin tam mülkiyyətində olmuşdur. 31 dekabr 2020-ci il tarixinə şirkətin Nizamnamə kapitalı hər birinin nominal dəyəri 5750 AZN (beş min yeddi yüz əlli manat, 00 qəpik) olan 7 000 ədəd adi adlı sənədsiz səhmdən ibarət olmaqla 40 250 000 manat olmuşdur.

## 2. Hesabat dövrü

Şirkət özünün illik Maliyyə Hesabatlarını 1 yanvar tarixindən 31 dekabr tarixinə qədər olan dövr üçün hazırlayır.

## 3. Əməliyyat valyutası

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Azərbaycan Manatı (AZN) Azərbaycan Respublikasının ərazisində yeganə qanunu pul vahidi kimi muəyyənləşdirilmişdir. Şirkətin aktivlərinin və gəlirlərinin müəyyən hissəsinin Azərbaycan manatından başqa, ABŞ Dolları, Avro, Funt sterlinq kimi valyutalarla ifadə olunmasına baxmayaraq, onu ölçü (hesabat) valyutası AZN-dir, çünki bütün məsrəflər və paylanmalar AZN ilə aparılır.

Valyutada olan əməliyyatlar üzrə:
• maliyyə vəziyyəti hesabatlarında təqdim edilmiş aktivlər və öhdəliklər (müqayisələr daxil olmaqla) maliyyə vəziyyəti hesabatının təqdim olunduğu tarixdəki yekun məzənnə ilə göstərilir;

• Dövrlər üzrə təqdim edilmiş gəlir və xərc maddələri (yəni, müqayisələr daxil olmaqla) əməliyyatların aparıldığı tarixlərdə mövcud olan məzənnələrlə əks olunur;
• Bölüşdürülməmiş mənfəət və zərər qalıqlarına daxil olan xalis mənfəət və zərərdən savayı, səhmdar kapitalı və digər kapital elementləri maliyyə vəziyyəti hesabatı tarixinin yekun məzənnəsi ilə əks olunur.

## 4. Uçot siyasəti və Maliyyə hesabatlarının tərtib olunmasının ümumi əsasları

"PAŞA Həyat Sığorta" ASC-nin əsas idarəetmə sənədi Şirkətin yeganə səhmdarı - PAŞA Holding MMC tərəfindən təsdiqlənmiş dövlət qeydiyyatına alınmış Nizamnaməsidir. Şirkət əməliyyatlarının icrasında və Şirkətin aktivlərinin saxlanılması, yerləşdirilməsi və idarə olunması üçün Qaydalarında yuxarıda qeyd olunan Nizamnaməsini rəhbər tutmalıdır.

Uçot siyasətinin Maliyyə hesabatlarının tərtib edilməsində istifadə edilən əsas müddəaları aşağıdakı bəndlərdə göstərilmişdir:

1. Hesablama metodu ilə uçot, gəlir və xərclərin uyğunlaşdırılması

Əməliyyatların və digər hadisələrin nəticələri həmin hadisələr baş verən anda tanınır (nağd pul və ya onun ekvivalentinin qəbul edildiyi və ya ödənildiyi halda deyil) və aid olduqları dövrdə uçota alınır və həmin dövrün maliyyə hesabatlarında təqdim edilir.

2. Fasiləsizlik

Maliyyə Hesabatları Şirkətin fəaliyyətdə olması və yaxın gələcəkdə fəaliyyətini davam etdirəcəyi ehtimalı əsasında hazırlanmışdır.

3. Maddilik

Faydalı olmaq üçün, məlumat istifadəcilərin diqqətlərinə və qərar vermə tələblərinə uyğun olmalıdır. Məlumatın uyğunluğu onun xususiyyəti və mahiyyətindən asılıdır. Məlumat o halda əsaslı hesab edilir ki, məlumatın buraxılması və ya düzgün təqdim edilməməsi istifadəçilərin maliyyə hesabatları əsasında iqtisadi qərarlar qəbul etməsinə təsir etsin.

4. Forma üzərində mahiyyət

Maliyyə məlumatının təqdim etməli olduğu əqdləri və digər əməliyyatları düzgün əks etdirməsi üçün, onların uçotunun aparılması və onların təkcə hüquqi formada deyil, həmçinin, oz mahiyyətlərinə və iqtisadi reallığına uyğun təqdim olunması zəruridir.

5. Ehtiyatlılıq

Bu prinsip aktiv və gəlirlərin artırılmaması, öhdəlik və xərclərin azaldılmaması şərti ilə qeyri-müəyyən hallarda qiymətləndirmələrin aparılmasında və tələb olunan mülahizələrin edilməsi zamanı təhlükənin dərəcəsinin nəzərə alınmasıdır.

6. Müqayisəli məlumat

Maliyyə hesabatlarındakı bütün rəqəmli məlumatlar əvvəlki dövrlə müqayisəli şəkildə açıqlanır. Müqayisəli məlumat cari düvrün maliyyə hesabatlarının təfsirinə aid olduğu halda, şərhlərə və digər qeydlərə daxil edilməlidir.

Maliyyə vəziyyəti haqqında hesabata açıqlama:

## 5. Əsas vəsaitlər

Əsas vəsaitlərin istifadə müddəti bir ildən çox olan və dəyəri 500 manatdan çox olan maddi aktivlərdir.

Ədalətli dəyər - yaxşı məlumatlandırılmış, razılığa gəlmiş və bir-birindən asılı olmayan tərəflər arasında ticari sövdələşmələrdə aktivin mübadilə edildiyi dəyərdir. Yenidənqiymətləndirmə tarixinə yığılmış istənilən amortizsiya məbləği aktivin balans dəyərindən silinir və xalis dəyər yenidənqiymətləndirmə dəyərinə hesablanır. Qalan bütün əsas vəsaitlər ilkin dəyərlə amortizasiya ayırmaları çıxılmaqla əks etdirilir.

İlkin dəyər bu aktivlərin əldə edilməsi ilə birbaşa əlaqədar olan xərcləri nəzərdə tutur. İlkin dəyərə həmçinin valyuta ilə alınmış əsas vəsaitlərin hedcinqi üzrə kapitala keçirilən pul vəsaitlərinin axını üzrə mənfəət və zərərlər də daxil edilir.

Əmlakın qalıq dəyəri - əsas vəsaitlərin ilkin dəyərinin həmin əsas vəsaitlərə hesablanmış amortizasiyanın məbləği qədər azaldılan dəyəridir.

Sonrakı xərclər aktivin balans dəyərinə yalnız o vaxt əlavə edilir və ya ayrıca aktiv kimi qəbul edilir ki, bu aktivlərlə əlaqədar olan gələcək iqtisadi səmərələr şirkətə keçsin və düzgün qiymətləndirilə bilinsin. Qalan bütün cari təmir və istismar xəcləri o dövrün mənfəət və zərərlər haqqında hesabatında əks etdirilir.

## 6. Amortizasiya

Əsas vəsaitlər üzrə amortizasiya əsas vəsaitlərin faydalı istismar müddəti ərzində aşağıdakı illik amortizasiya dərəcələrini aktivlərin balans dəyərinə və ya yenidənqiymətləndirilmiş dəyərinə tətbiq etməklə həyata keçirilir. İllik amortizasiya dərəcələri aşağıdakı qaydada müəyyən edilir:

- Maşın avadanlıq - illik 20% (yüksək texnologiyalar məhsulu olan hesablama texnikası üzrə- illik 25% dək)
- Nəqliyyat vasitələri - 25%
- Mebel və təsərrüfat inventarları - illik 20%
- Sair əsas vəsaitlər - illik 20%

Aktivlərin ləğv edilmə dəyərinə və onların faydalı istismar müddətinə vaxtaşırı yenidən baxılır və zərurət olduqda, hər bir hesabat dövrünə təshih edilir.

Əsas vəsaitlərin xaricolmasından mənfəət və zərərlər bu əsas vəsaitlərin satışı ilə onların qalıq dəyərinin müqayisə edilməsi yolu ilə müəyyən edilir. Xaricolmalardan mənfəət və zərərlər mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

Maliyyə vəziyyəti haqqında hesabatda Torpaq, tikili və avadanlıqlar maddəsinin açıqlaması:

| | **31.12.2020** |
|---|---|
| Maşın və avadanlıqlar | 127.748,04 |
| Nəqliyyat vaistələri | 257.670,11 |
| Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası | 1.056.049,63 |
| Digər əsas vəsaitlər | 289.083,16 |
| **Cəmi** | **1.730.550,94** |

## 7. Qeyri-maddi aktivlər

Cəmiyyətin bütün qeyri-maddi aktivləri müəyyən faydalı xidmət müddətinə malik olmaqla əsasən proqram məhsulları və lisenziyadan ibarətdir.

Əldə edilmiş hüquqlar və proqram məhsulları onların alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclərin əsasında kapitallaşdırılmışdır. Cəmiyyət tərəfindən nəzarət olunan identifikasiya oluna bilən unikal proqram təminatı ilə birbaşa əlaqəli olan tərtibat xərcləri, çəkilmiş xərclərdən artıq olan iqtisadi səmərə gətirəcəyi halda qeyri-maddi aktivlər kimi tanınır. Kapitallaşdırılmış xərclərə proqram təminatını tərtib edən şirkətlərə sərf edilən xərclər daxildir. Proqram təminatı ilə əlaqədar olan bütün digər xərclər (məsələn, texniki dəstək xərcləri)

çəkildiyi zaman xərcə silinir. Kapitallaşdırılmış proqram təminatı onun faydalı xidmət müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən amortizasiya olunur.

Lisenziya - sığorta fəaliyyət növünə müvafiq dövlət orqanı tərəfindən verilmiş xüsusi icazə təşkil edir və faydalı xidmət müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən amortizasiya olunur.

Maliyyə vəziyyəti haqqında hesabatda qeyri maddi aktivlər maddəsinin açıqlaması:

| | **31.12.2020** |
|---|---|
| İstifadə müddəti məlum olan qeyri maddi aktivlər | 239.191,20 |
| İstifadə müddəti məlum olmayan qeyri maddi aktivlər | 233.032,77 |
| **Cəmi** | **472.223,97** |

## 8. Aktivlərin qiymətdən düşməsi

Faydalı istismar müddəti müəyyən edilə bilinməyən aktivlər amortizasiya olunmur və hər il qiymətdən düşmə məqsədləri üçün testləşdirmə aparılır. Amortizasiya olunan aktivlər, əgər hər hansı bir hadisə və ya şəraitin dəyişməsi balans dəyərinin bu aktivlərin əvəzinin ödənilmə dəyəri olmamasını göstərirsə, hər dəfə qiymətdən düşmə məqsədləri üçün qiymətləndirilir. Qiymətdən düşmə zərəri aktivin balans dəyərinin onun əvəzinin ödənilmə dəyərindən artıq olan məbləğində tanınır. Əvəzinin ödənilməsi dəyəri aşağıdakı iki meyarlardan daha böyük olan məbləğlərdən biridir:

(a) Aktivin satışı üzrə xərclər çıxılmaqla ədalətli dəyəri;

(b) İstifadə edilmə dəyəri.

## 9. İnvestisiyalar

Cəmiyyət özünün investisiyalarını aşağıdakı şəkildə təsnifləşdirir:

- Ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri;
- Borc vəsaitləri və debitor borcları,
- İnvestisiyalar;
- Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri.

Təsnifləşdirmə investisiyaların hansı məqsədlə alınmasından asılıdır. Rəhbərlik investisiyaların təsnifləşdirilməsini onların ilkin tanınması zamanı müəyyən edir və hər bir hesabat tarixinə onları yenidən nəzərdən keçirir.

*(a) Ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri*

Bu kateqoriya iki alt kateqoriyaya bölünür: ticarət üçün nəzərdə tutulmuş maliyyə aktivləri və ilkin tanınmış ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri. Maliyyə aktivləri bu kateqoriyaya o zaman aid edilir ki, onlar yaxın gələcəkdə satış üçün nəzərdə tutulmuşdur və onlar rəhbərlik tərəfindən belə ifadə edilmişdir. Törəmə maliyyə alətləri də həmçinin satış üçün nəzərdə tutulmuş hesab edilirlər ki, onlar hedcinqləşdirmə alətləri deyildirlər. Əgər bu aktivlər satış üçün nəzərdə tutulmuşlarsa, və ya onların satılması balans hesabatı tarixindən bir ildən artıq olmayan müddətdə nəzərdə tutulmuşdursa, bu kateqoriyanın aktivləri qısamüddətli aktivlər kimi təsnifləşdirilirlər.

*(b) Borc vəsaitləri və debitor borcları*

Borc vəsaitləri və debitor borcları təsbit edilmiş və ya müəyyən edilə bilən ödəmə müddəti olan və aktiv bazarda qiyməti təyin edilməyən (kotirovka olunmayan) qeyri-törəmə maliyyə aktivləridir. Onlar o vaxt yaranırlar ki, Cəmiyyət debitor borclarının satılması niyyəti olmadan pul vəsaitlərini, malları və xidmətləri birbaşa debitora təqdim edir. Belə borc vəsaitləri və debitor borcları dövriyyə aktivləri kimi təsnifləşdirilirlər və qısamüddətli aktivlərə aid edilirlər (əgər ödəmə müdəti mühasibat balansının tərtib edilmə tarixindən bir ilədək müddətdən artıq deyildirsə). Borc vəsaitləri və debitor borcları mühasibat balansında "Debitor borcları" maddəsinin tərkibində əks etdirilmişlər.

(c) *Ödəmə müdətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar*

Ödəmə müdətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar təsbit edilmiş ödəmə müddəti olan elə qeyri-törəmə maliyyə aktivləridir ki, onlarla münasibətdə ödəniş müddətinin çatmasına qədər Cəmiyyətin onları saxlamağa qəti niyyəti və imkanı vardır. Hesabat dövründə Cəmiyyətin bu kateqoriya üzrə heç bir investisiyası olmamışdır.

(d) *Satış üçün nəzərdə tutulmuş maiyyə aktivləri*

Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri bu kateqoriyada nəzərdə tutulmamış və ya digər kateqoriyalarda təsnifləşdirilməmiş qeyri-törəmə maliyyə alətləridir. Əgər rəhbərliyin bu aktivləri mühasibat balansının tərtib edilmə tarixindən bir ilədək müddətə satmaq niyyəti yoxdursa, onlar qeyri-dövriyyə aktivlərinə aid edilirlər və uzunmüddətli aktivlərin tərkibində əks etdirilirlər.

## 10. Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nəğd pul məbləğinə çevrilə bilən və dəyəri cuzi dəyişikliklərə məruz qalan maddələrdir. Pul vəsaitləri və onların ekvivalentləri maddəsində kassada olan nəğd pul vəsaitləri, yolda olan pul köçürmələri, bank hesablaşma hesabları, digər tələbli bank hesabları, pul vəsaitlərinin ekvivalentləri, bank overdraftları və ödənilmə müddəti üç aydan artıq olmayan digər yüksəklikvidli investisiyalar əks etdirilir. Mühasibat balansında bank overdraftları qısamüddətli öhdəliklərin tərkibində qısamüddətli faiz xərcləri yaradan öhdəliklər maddəsi üzrə əks etdirilir.

Maliyyə vəziyyəti haqqında hesabatda pul vəsaitləri və onun ekvivalenti maddəsinin açıqlaması:

| | **31.12.2020** |
|---|---|
| Kassada olan nəğd pul vəsaitləri | 298,79 |
| Bank cari hesablarındakı pul vəsaitləri | 6.071.809,70 |
| Bank depozit hesablarındakı pul vəsaitləri | 129.758.765,12 |
| Bank hesablarındakı sair pul vəsaitləri | 45.315,91 |
| **Cəmi** | **135.876.189,52** |

## 11. Səhmdar kapital

Adi səhmlər kapital kimi təsnifləşdirilir.

Yeni səhmlərin buraxılması ilə əlaqədar olan xərclər kapitalın tərkibində əks etdirilir.

| Səhm kapitalı | Səhmlərin sayı (ədəd) | Səhmin nominal dəyəri (manat) | Adi səhmlər (manat) | İmtiyazlı səhmlər (manat) | Cəmi səhmdar kapitalı (manat) |
|---|---|---|---|---|---|
| **31 dekabr 2018-ci il tarixinə** | **7000** | **5750** | **40250000** | | **40250000** |
| Səhmlərin nominal dəyərinin mülkkiyyətçilərin kapital qoyuluşları hesabına artırılması | - | - | | - | - |
| **31 dekabr 2019-ci il tarixinə** | **7000** | **5750** | **40250000** | | **40250000** |
| Səhmlərin nominal dəyərinin mülkkiyyətçilərin kapital qoyuluşları hesabına artırılması | | | | | |
| **31 dekabr 2020-cu il tarixinə** | **7000** | **5750** | **40250000** | | **40250000** |

## 12. Sığorta ehtiyatları

Sığorta ehtiyatları, o cümlədən sığorta ehtiyatlarında təkrarsığortaçıların payı yerli icra hakimiyyəti orqanının tələblərinə əsasən hesablanır. Hazırkı maliyyə hesabatlarında sığorta ehtiyatları və sığorta ehtiyatlarında təkrarsığortaçıların payı həmin qaydalar əsasında hesablanmışdır.

Maliyyə vəziyyəti haqqında hesabatda sığorta ehtiyyatları və sığorta ehtiyyatında təkrarsığortaçıların payı maddəsinin açıqlaması:

| **Sığorta ehtiyyatları 31.12.2020** | Ümumi məbləğ | Təkrarsığortaçıların payı | Xalis sığorta ehtiyatları |
|---|---|---|---|
| Riyazi ehtiyyatlar | 230.417.401,77 | 187.073,26 | 230.230.328,51 |
| Baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyyatı | 3.993.693,40 | 281.365,72 | 3.712.327,68 |
| Bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyyatı | 39.763.040,16 | 1.121.378,50 | 38.641.661,66 |
| Şərti öhdəliklər | 854.302,84 | - | 854.302,84 |
| **Cəm** | **275.028.438,17** | **1.589.817,48** | **273.438.620,69** |

## 13. Sair debitorvə kreidtor borcları

| **Sair debitor borcları** | **31.12.2020** |
|---|---|
| Depozit müqavilələri üzrə hesablaşmalar | 454.924,38 |
| İstiqraz faizləri üzrə hesablaşmalar | 3.393.045,07 |
| Digər debitor borcları | 2.325,68 |
| **Cəmi** | **3.850.295,13** |

| Sair kreditor borcları | 31.12.2020 |
|---|---|
| İddia tələbləri üzrə hesablaşmalar | 116.766,64 |
| Agent və broker komissiyalarına görə hesablaşmalar | 6.409.145,12 |
| Təchizatçılarla hesablaşmalar | 620.929,21 |
| Repo əməliyyatları üzrə hesablaşmalar | 40.229.229,05 |
| Digər kreditor borcları | 781.096,32 |
| **Cəmi** | **48.157.166,34** |

## 14. Mənfəət vergisi

Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında balans tarixinə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirəsalınmış mənfəət vergisindən ibarət olub, mənfəət və zərər hesabatında qeydə alınır. Lakin, həmin və ya başqa dövrdə bilavasitə kapital hesablarında qeydə alınan əməliyyatlara aid olan vergilər bilavasitə kapital hesablarında qeydə alınır.

Cari mənfəət vergisi, cari və ya əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq (əvəzləşdiriləcək) məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər, maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim edilməsindən əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi üzrə ehtiyat (rezerv) öhdəliklər metodu istifdə edilməklə tam həcmdə yaradılır. Təxirə salınmış mənfəət vergisi, aktivlərin və öhdəliklərin vergitutma bazası ilə onların maliyyə hesabatlarında əks etdirilmiş balans dəyəri arasında meydana çıxan bütün zaman fərqləri üzrə müəyyən edilir. Lakin, təxirə salınmış mənfəət vergisi, aktivlərin və ya öhdəliklərin ilkin tanınması zamanı meydana çıxırsa, o halda təxirə salınmış mənfəət vergisi uçotda əks etdirilmir (əgər, sövdələşmənin həyata keçirildiyi anda nə mühasibat mənfəətinə, nə də vergiyə cəlb edilən mənfəətə təsir etməyən biznesin birləşdirilməsi ilə əlaqədar deyildirsə). Təxirə salınmış mənfəət vergisi mühasibat balansının tərtib edilmə tarixinə qüvvədə olan Azərbaycan Respunlikasının Vergi Məcəlləsində müəyyən edilmiş vergi dərəcələrinə müvafiq olaraq hesablanır.

Təxirə salınmış vergi aktivləri o zaman tanınır ki, gələcəkdə zaman fərqləri məbləğində azaldıla biləcək vergiyə cəlb ediləsi mənfəət əldə edilməsi ehtimalı vardır.

## 15. Gəlirin tanınması

Gəlirlər aşağıdakı qaydada tanınır:

*(a) Birbaşa sığorta üzrə gəlir*

Birbaşa sığorta üzrə gəlir o vaxt tanınır ki, Cəmiyyətlə sığortalı arasında müqavilə imzalanmış, sığorta polisi sığortalı tərəfindən qəbul edilmişdir və müvafiq olan debitor borcunun alınması üçün kifayət dərəcədə ehtimal vardır.

*(b) Təkrarsığorta üzrə gəlir*

Təkrarsığorta üzrə gəlir o vaxt tanınır ki, Cəmiyyətlə təkrarsığortalı arasında risklərin təkrarsığortaya qəbul edilməsinə dair müqavilə imzalanmışdır və müvafiq olan debitor borcunun alınması üçün kifayət dərəcədə ehtimal vardır.

*(c) Sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə gəlirlər*

Sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə gəlirlər o zaman tanınır ki, təkrarsığortaya verilmiş müqavilələr üzrə baş vermiş və aktlaşdırılmış sığorta hadisəsinə görə zərərin müvafiq hissəsinin təkrarsığortaçı tərəfindən ödəniləcəyi razılaşdırılmışdır və həmin hissənin ödənilməsi üçün kifayət dərəcədə ehtimal vardır.

*(d) Təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə gəlirlər*

Təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə gəlirlər o zaman tanınır ki, risklərin təkrarsığortaya verilməsinə dair təkrarsığortaçı ilə müqavilə bağlanmışdır və həmin müqavilə üzrə komissyon muzdun alınması üçün kifayət dərəcədə ehtimal vardır.

*(e) Xidmətlərin göstərilməsindən gəlirlər*

Xidmətlərin göstərilməsindən gəlirlər o hesabat dövrünə aid edilir ki, bu xidmətlər göstərilmişdir və xidmət göstərilməsi üzrə konkret sövdələşmənin tələbləri başa çatdırılmışdır. Konkret sövdələşmənin tələblərinin başa çatdırılması dərəcəsi faktiki göstərilmiş xidmətlərin həcminin sövdələşmə üzrə göstəriləcək xidmətlərin ümumi həcmindəki payı kimi qiymətləndirilir.

*(f) Dividend gəlirləri*

Dividend gəlirləri o zaman tanınır ki, səhmdarların mənfəət əldə etmək hüququ müəyyən olunmuşdur.

Mənfəət və Zərər haqqında hesabatda qeyd edilən investisiya gəlirləri maddəsinin açıqlaması:

**16. Dividendlər**

Şirkətin səhmdarlarına verilən dividendlər maliyyə hesabatlarında dividendin elan edilməsi üzrə qərarın tarixində tanınır.

**17. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli mühasibat təxminləri və fərziyyələri**

Cəmiyət növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən aktiv və öhdəliklərin məbləğinə təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edir.Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və fərziyyələr irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

**18. Qanunvericiliklə nəzərdə tutulmuş normalar**

Cəmiyyət sığorta üzrə fəaliyyəti zamanı "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunu ilə nəzərdə tutulmuş və Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş sığortaçıların investisiya əməliyyatları ilə bağlı qaydaları, sığortaçının tələb olunan kapitalının müəyyənləşdirilməsi qaydaları, sığortaçıların zərərlilik dərəcəsinin müəyyən edilməsi qaydaları , sığorta və ya təkrarsığorta müqavilələri üzrə sığortaçının şəxsi tutumunun yuxarı həddinə dair tələbləri və digər normativ sənədlərin tələblərini rəhbər tutur.

**Vergilər, əmək münasibətləri və sosial sığorta.**Vergilərin hesablanması və ödənilməsi, əmək münasibətləri üzrə işçilərlə hesablaşmalar, sosial sığorta üzrə əməliyyatlar Azərbaycan Respublikasının vergi, əmək və sosial sığorta üzrə qanunvericiliyinə uyğun olaraq aparılır.

**19. Əlaqəli tərəflərlə əməliyyatlar**

Hazırkı maliyyə hesabatlarının hazırlanmsı məqsədləri üçün tərəflər o zaman əlaqəli hesab olunur ki, tərəflərdən biri digərinə nəzarət edə bilsin, onunla eyni qrupun nəzarəti altında olsun və ya maliyyə-təsərrüfat fəaliyyəti ilə

bağlı məsələlər üzrə qərar qəbul edərkən ona təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

*İsmayılov Niyaz*
*İdarə heyətinin sədri*

*Həsənova Nərmin*
*Baş mühasib*

Azərbaycan Respublikası Bakı
PAŞA Həyat Sığorta
Açıq Səhmdar Cəmiyyəti
PAŞA Həyat
Open Joint Stock Company
PASHA Life Insurance
Azerbaijan Republic Baku

**“PAŞA Həyat Sığorta” ASC-nin 31 dekabr 2020-ci il tarixində bitən il üzrə Pul vəsaitlərinin hərəkəti haqqında hesabatı (BMHS-na əsasən)**

*Məlumatlar min Azərbaycan manatı ilə təqdim edilir.*

| | *2020* | *2019* |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Yığılmış sığorta haqları | 220856 | 190467 |
| Ödənilmiş təkrarsığorta haqları | (758) | (890) |
| Sığorta ödənişləri | (204022) | (80077) |
| Ödənilmiş komissiya xərcləri | (23677) | (36061) |
| İşçilərlə bağlı ödənilmiş xərclər | (11179) | (9582) |
| Digər gəlirlər | - | 11 |
| Ödənilmiş digər əməliyyat və inzibati xərclər | (12728) | (4862) |
| **Əməliyyat öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən əldə edilmiş pul vəsaitləri** | **(31508)** | **59006** |
| İnvestisiya müqavilələri üzrə öhdəlik | (1746) | (3876) |
| **Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətindən əldə edilmiş xalis pul vəsaitləri** | **(33254)** | **55130** |
| Ödənilmiş mənfəət vergisi | (7850) | (3604) |
| **Əməliyyat fəaliyyətindən əldə edilmiş xalis pul vəsaitləri** | **(41104)** | **51526** |
| **İnvestisiya fəaliyyətindən əldə edilmiş pul vəsaitləri** | | |
| Kredit təşkilatında yerləşdirilmiş məbləğlər | (44091) | (70399) |
| Kredit təşkilatları tərəfindən ödənilmiş məbləğlər | 79357 | 11816 |
| Satış üçün mövcud olan investisiya qiymətli kağızlarının alınması | (70338) | (112558) |
| İnvestisiya qiymətli kağızlarının satılması və geri alınmasından daxilolmalar | 55588 | 102860 |
| Əks "repo" razılaşmaları üzrə pul vəsaitlərinin yatırılması | (96496) | (122402) |
| Əks "repo" razılaşmalarının ödənilməsindən daxilolmalar | 96496 | 121396 |
| Alınmış investisiya gəliri | 22929 | 21180 |
| Əmlak və avadanlıqların alınması | (808) | (1117) |
| Qeyri(maddi aktivlərin alınması | (704) | (410) |
| Əmlakın və avadanlığın satışından daxilolmalar | 88 | 86 |
| **İnvestisiya fəaliyyəti üzrə (istifadə edilmiş)/ əldə edilmiş xalis pul vəsaitləri** | **42021** | **(49548)** |

| | | |
|---|---|---|
| **Maliyyələşdirmə fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Dividendlərin ödənilməsi | (26238) | (20700) |
| Repo əməliyyatlarından mədaxil | 53000 | – |
| Repo əməliyyatlarına görə məxaric | (13000) | (11534) |
| İcarə haqqının ödənişi | (724) | (440) |
| **Maliyyələşdirmə fəaliyyətində istifadə edilmiş xalis pul vəsaitləri** | **13038** | **(32674)** |
| | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə valyuta məzənnələrinin dəyişməsinin təsiri | – | 1,00 |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis (azalma)/artma** | **13955** | **(30695)** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ilin əvvəlinə** | **17380** | **48075** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ilin sonuna** | **31335** | **17380** |

İsmayılov Niyaz
İdarə heyətinin sədri

M.Y.

Həsənova Nərmin
Baş mühasib

Azərbaycan Respublikası Bakı
PAŞA Həyat Sığorta
Açıq Səhmdar Cəmiyyəti
PAŞA Həyat
Open Joint Stock Company
PASHA Life Insurance
Azerbaijan Republic Baku

"PAŞA Həyat Sığorta" ASC

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**

**31 dekabr 2020-ci il tarixində bitən il üzrə** *Azərbaycan Manatı ilə*

| | Nizamnamə Kapitalı | Bölüşdürülməmiş mənfəət(zərər) | Cəmi Kapital |
|---|---|---|---|
| **31 dekabr 2018-ci il tarixinə qalıq** | **40 250 000** | **21 355 013.36** | **61 605 013.36** |
| 2019-cu il üzrə xalis mənfəət | | 32 013 215.22 | 32 013 215.22 |
| Elan edilmiş dividend | | (20 700 000) | (20 700 000) |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | |
| **31 dekabr 2019-cu il tarixinə qalıq** | **40 250 000** | **32 668 228.58** | **72 918 228.58** |
| 2020-ci il üzrə xalis mənfəət | | 21 773 569.5 | 21 773 569.5 |
| Elan edilmiş dividend | | (26 238 000) | (26 238 000) |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | **40 250 000** | **28 203 798.08** | **68 453 798.08** |

İsmayılov Niyaz
İdarə heyətinin sədri

M.Y.

Həsənova Nərmin
Baş mühasib

CASPIAN CONSULTING & PARTNERS

Zərifə Əliyeva küçəsi 93,
BEGOC Biznes Mərkəzi,6-cı mərtəbə
AZ1000 Bakı, Azərbaycan.
tel: +99412 505-58-47
+99412 505-58-48
mob: +99450 225-79-15
e-mail: office@cc.baku.az
veb səhifə: www.caspian-consulting.com

# MÜSTƏQİL AUDİTORUN RƏYİ

**"PAŞA Həyat Sığorta" Açıq Səhmdar Cəmiyyətinin**
**İdarə heyətinin sədri Niyaz İsmayılovun diqqətinə**
***Rəy***

Biz **"PAŞA Həyat Sığorta" ASC** 31 dekabr 2020-ci il tarixinə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülasəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, Cəmiyyətin qoşma maliyyə hesabatları bütün əhəmiyyətli aspektlərdə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hazırlanmışdır.

## Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika Məcəlləsinin" (IESBA Məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də IESBA məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

## Əsas audit məsələləri

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

## Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz tərtib edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamama riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şərtlər çərçivəsində uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

"Caspian Consulting and Partners" MMC

Direktor/Auditor: Elnurə Abdinova

Tarix: 29.03.2021

**"PAŞA Həyat Sığorta" ASC**
**31 Dekabr 2020-ci il tarixinə**
# MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

*Azərbaycan manatı ilə*

| | Qeyd | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak və avadanlıqlar | 5 | 1 730 550,94 | 995 428,30 |
| Qeyri-maddi aktivlər | 6 | 472 223,97 | 412 915,57 |
| Daşınmaz əmlaka investisiyalar | 7 | 417 655,89 | 417 655,89 |
| Uzunmüddətli maliyyə aktivləri | 8 | 220 097 212,33 | 202 645 999,17 |
| İştrak payı metodu ilə uçota alınmış investisiyalar | 9 | 10 000 000,00 | - |
| Sair uzunmüddətli aktivləri | | 100 000,00 | 100 000,00 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **232 817 643,13** | **204 571 998,93** |
| **Qısamüddətli aktivlər** | | | |
| Debitor borcları | 10 | 13 481 513,48 | 11 727 729,69 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 11 | 135 876 189,52 | 155 778 803,64 |
| Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı | 12 | 1 589 817,48 | 1 055 146,76 |
| Qısamüddətli maliyyə aktivləri | 13 | 7 043 236,55 | 21 912 744,15 |
| Sair qısamüddətli aktivlər | 14 | 97 221,83 | 528 894,73 |
| Sair aktivlər | 15 | 5 350 528,35 | 4 550 424,23 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **163 438 507,21** | **195 553 743,20** |
| **CƏMİ AKTİVLƏR** | | **396 256 150,34** | **400 125 742,13** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | | 40 250 000,00 | 40 250 000,00 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 23 | 28 203 798,08 | 32 668 228,58 |
| **CƏMİ KAPİTAL** | | **68 453 798,08** | **72 918 228,58** |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Sığorta ehtiyatları | 16 | 275 028 438,17 | 318 133 388,46 |
| Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər | 17 | 193 932,43 | 486 881,13 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **275 222 370,60** | **318 620 269,59** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Kreditor borcları | 18 | 49 670 217,26 | 6 319 139,28 |
| Sair qısamüddətli öhdəliklər | 19 | 2 909 764,40 | 2 268 104,68 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **52 579 981,66** | **8 587 243,96** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **327 802 352,26** | **327 207 513,55** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **396 256 150,34** | **400 125 742,13** |

***İdarə Heyətinin Sədri***
*İsmayılov Niyaz Rövşən oğlu*

**Baş mühasib**
Həsənova Nərmin Salman qızı

"29 mart" 2021-ci il

**“PAŞA Həyat Sığorta” ASC-nin**
**MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HAQQINDA HESABAT**
**31 Dekabr 2020-ci il tarixinə**

*Azərbaycan manatı ilə*

| | Qeyd | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il |
|---|---|---|---|
| **Gəlirlər** | | | |
| Əsas əməliyyat gəliri | 20 | 243 531 791,41 | 212 243 635,59 |
| Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və mənfi) | | 43 639 621,01 | (40 359 789,15) |
| İnvestisiya gəlirləri üzrə | | 24 820 101,14 | 24 962 843,58 |
| Sair gəlirlər | | 43 065,84 | 131 586,70 |
| **Ümumi gəlirlər** | | **312 034 579,40** | **196 978 276,72** |
| **Xərclər** | | | |
| Əsas əməliyyat xərcləri | 21 | (228 021 961,50) | (105 369 890,32) |
| İşlərin aparılması xərcləri | 22 | (54 480 272,74) | (51 351 158,24) |
| Sair xərclər | | (52 291,19) | (21 043,22) |
| **Ümumi xərclər** | | **(282 554 525,43)** | **(156 742 091,78)** |
| **Maliyyə mənfəəti (zərəri)** | | **29 480 053,97** | **40 236 184,94** |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | 23 | **29 480 053,97** | **40 236 184,94** |
| Mənfəət vergisi | 23 | (7 706 484,47) | (8 222 969,72) |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 23 | **21 773 569,50** | **32 013 215,22** |

***İdarə Heyətinin Sədri***
*İsmayılov Niyaz Rövşən oğlu*

“29 mart” 2021-ci il

***Baş mühasib***
Həsənova Nərmin Salman qızı

**"PAŞA Həyat Sığorta" ASC**

**31 Dekabr 2020-ci il tarixində bitən il üzrə**

**Kapitalda Dəyişikliklər haqqında Hesabat**

*Azərbaycan manatı ilə*

| | Qeyd | Nizamnamə Kapitalı | Bölüşdürülməmiş mənfəət(zərər) | Cəmi Kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2018-ci il tarixinə qalıq** | | **40 250 000,00** | **21 355 013,36** | **61 605 013,36** |
| 2019-cu il üzrə xalis mənfəət | 23 | | 32 013 215,22 | 32 013 215,22 |
| Elan edilmiş dividend | | | (20 700 000,00) | (20 700 000,00) |
| **31 dekabr 2019-cu il tarixinə qalıq** | | **40 250 000,00** | **32 668 228,58** | **72 918 228,58** |
| 2020-ci il üzrə xalis mənfəət | 23 | | 21 773 569,50 | 21 773 569,50 |
| Elan edilmiş dividend | | | (26 238 000,00) | (26 238 000,00) |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | | **40 250 000,00** | **28 203 798,08** | **68 453 798,08** |

***İdarə Heyətinin Sədri***
*İsmayılov Niyaz Rövşən oğlu*

"29 mart" 2021-ci il

***Baş mühasib***
Həsənova Nərmin Salman qızı

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
**31 Dekabr 2020-ci il tarixinə**

*Azərbaycan manatı ilə*

| | Qeyd | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Yığılmış sığorta haqları | | 220 856 000,00 | 190 467 000,00 |
| Ödənilmiş təkrarsığorta haqları | | (758 000,00) | (890 000,00) |
| Sığorta ödənişləri | | (204 022 000,00) | (80 077 000,00) |
| Ödənilmiş komissiya xərcləri | | (23 677 000,00) | (36 061 000,00) |
| İşçilərlə bağlı ödənilmiş xərclər | | (11 179 000,00) | (9 582 000,00) |
| Digər gəlirlər | | - | 11 000,00 |
| Ödənilmiş digər əməliyyat və inzibati xərclər | | (12 728 000,00) | (4 862 000,00) |
| **Əməliyyat öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən əldə edilmiş pul vəsaitləri** | | **(31 508 000,00)** | **59 006 000,00** |
| İnvestisiya müqavilələri üzrə öhdəlik | | (1 746 000,00) | (3 876 000,00) |
| **Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətindən əldə edilmiş xalis pul vəsaitləri** | | **(33 254 000,00)** | **55 130 000,00** |
| Ödənilmiş mənfəət vergisi | | (7 850 000,00) | (3 604 000,00) |
| **Əməliyyat fəaliyyətindən əldə edilmiş xalis pul vəsaitləri** | | **(41 104 000,00)** | **51 526 000,00** |
| **İnvestisiya fəaliyyətindən əldə edilmiş pul vəsaitləri** | | | |
| Kredit təşkilatında yerləşdirilmiş məbləğlər | | (44 091 000,00) | (70 399 000,00) |
| Kredit təşkilatları tərəfindən ödənilmiş məbləğlər | | 79 357 000,00 | 11 816 000,00 |
| Satış üçün mövcud olan investisiya qiymətli kağızlarının alınması | | (70 338 000,00) | (112 558 000,00) |
| İnvestisiya qiymətli kağızlarının satılması və geri alınmasından daxilolmalar | | 55 588 000,00 | 102 860 000,00 |
| Əks "repo" razılaşmaları üzrə pul vəsaitlərinin yatırılması | | (96 496 000,00) | (122 402 000,00) |
| Əks "repo" razılaşmalarının ödənilməsindən daxilolmalar | | 96 496 000,00 | 121 396 000,00 |
| Alınmış investisiya gəliri | | 22 929 000,00 | 21 180 000,00 |
| Əmlak və avadanlıqların alınması | | (808 000,00) | (1 117 000,00) |
| Qeyri-maddi aktivlərin alınması | | (704 000,00) | (410 000,00) |
| Əmlakın və avadanlığın satışından daxilolmalar | | 88 000,00 | 86 000,00 |
| **İnvestisiya fəaliyyəti üzrə (istifadə edilmiş)/ əldə edilmiş xalis pul vəsaitləri** | | **42 021 000,00** | **(49 548 000,00)** |

**Maliyyələşdirmə fəaliyyətindən pul vəsaitlərinin hərəkəti**

| | | | |
|---|---|---|---|
| Dividendlərin ödənilməsi | | (26 238 000,00) | (20 700 000,00) |
| Repo əməliyyatlarından mədaxil | | 53 000 000,00 | - |
| Repo əməliyyatlarına görə məxaric | | (13 000 000,00) | (11 534 000,00) |
| İcarə haqqının ödənişi | | (724 000,00) | (440 000,00) |
| **Maliyyələşdirmə fəaliyyətində istifadə edilmiş xalis pul vəsaitləri** | | **13 038 000,00** | **(-32 674 000,00)** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə valyuta məzənnələrinin dəyişməsinin təsiri | | - | 1 000,00 |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis (azalma)/artma** | 11 | **13 955 000,00** | **(30 695 000,00)** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ilin əvvəlinə** | 11 | **17 380 000,00** | **48 075 000,00** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ilin sonuna** | 11 | **31 335 000,00** | **17 380 000,00** |

***İdarə Heyətinin Sədri***
*İsmayılov Niyaz Rövşən oğlu*

"29 mart" 2021-ci il

***Baş mühasib***
Həsənova Nərmin Salman qızı